

# RASİM BALAYEV
## VƏ AZƏRBAYCAN KİNOSU

**Ekranlara çıxdığı gündən aktyorun simasında naməlum, izaholunmaz, hətta sehirli cizgilər tamaşaçıların gözündən yayınmadı. Xüsusilə də xanımların müzakirə obyektinə çevrildi. Hətta Azərbaycanda deyil, getdiyi bütün ölkələrdə onun cazibədarlığından, ürəyəyatımlılığından danışırdılar.**

Aktyorun ünvanına saysız-hesabsız pərəstiş məktubları, təşəkkürlər, məhəbbət etirafları axırdı. "Nəsimi" filminin rejissoru Həsən Seydbəylidən Rasim haqqında soruşanda çox böyük həvəslə cavab verərdi:

"Təbiət Rasimə ilahidən gözəl sifət bəxş eləmişdir, onun qaşları, ağzı-burnu, çənəsi qədim Şərq miniatürlərində, Sultan Məhəmmədin yadigarında olduğu kimi son dərəcə incədir, nəcimdir, gözoxşayandır". Bir sözlə aktyoru saatlarla Nəsimi demişkən vəsf etməyə dəyər.

Əlbəttə, aktyorun bu qədər şöhrətlənməsini, əldə etdiyi uğuru təkcə onun zahiri cazibədarlığı ilə bağlamaq haqsızlıq olardı. Yaratdığı hər obrazla milyonların sevimlisinə çevrilən aktyor illər keçməsinə baxmayaraq bu gün də Azərbaycan kinosunda öz şöhrətini qoruyub saxlamışdır.

Aktyor İncəsənət İnstitutunu bitirdikdən sonra Tədris teatrında işləməyə başlayır. Günlərin bir günü aktyor Müxlis Cənizadə Rasimi kinostudiyaya gətirir. Elə bu gəlişlə də aktyorun həyatında hər şey dəyişir. Həmin vaxt rejissor Həsən Seydbəyli "Nəsimi" filmində baş rola aktyor axtarışında idi. Elə ilk baxışda rejissor Rasimi bəyənib rola təsdiq edir.

"Elə bir sifət ki, böyükli-kiçikli, qocalı-cavanlı, oğlanlı-qızlı hamı onu görəndə valeh olur, necə deyərlər "ağlı başından gedir" - deyən Həsən Seydbəyli Şərqin dahi filosof-şairi, kamillik əqidəsi naminə canından keçmiş böyük İmadəddin Nəsimi obrazını kənddən gəlmiş, yaradıcı ziyalılar mühitindən kənarda böyüyüb boya-başa çatmış, ilk baxışda heç o qədər də diqqəti cəlb eləməyən adi gənc bir oğlanın onun ümidlərini doğruldacağına inanırdı. Onun yaradıcılığına nəzər salsaq 160 - dan çox filmin yer aldığını görərik. Yaradıcılığa Bakı kinostudiyasında "Ulduzlar sönmür" əsərində kiçik bir rolla başlamışdır. Lakin onu xalqa sevdirən, yaradıcılığının qaranquşu hesab olunan 1973-cü ildə rejissor Həsən Seydbəylinin çəkdiyi "Nəsimi" filmi oldu. Nəsimi obrazı haqqında Həsən Seydbəylidən soruşanda çox böyük inamla cavab verərdi:

"Çılğın, istiqanlı, üsyankar şair obrazını yaratmaq, belə bir şəxsiyyətin bütün təzadlı, gərgin ömrünü yaşamaq gənc aktyor Rasim Balayev üçün çox çətindir. Aktyordan böyük həyat, ekran və səhnə təcrübəsi tələb olunur. Rasim həm zahiri görkəmi, həm də emosionallığı ilə istənilən tələbə uyğun gəlir. Onun üzündə nə isə qəribə bir qədimlik var. Bir növ, orta əsr adamlarını xatırladır. Üzünün cizgiləri son dərəcə ifadəlidir, gözləri mənalıdır".

"Nəsimi qəzəllərini oxuyanda bizi də, tamaşaçıları da sarsıda bildi. Kadrdan -kadra Nəsimiləşdi. Onun bütün varlığından Nəsimi ehtirası, Nəsimi şeriyyatı, Nəsimi dəyanəti sızmağa başladı" deyən Həsən Seydbəyli bildirirdi ki, " Buna görə də həm Ümumittifaq kino festivalında, həm də Daşkənddə keçirilən beynəlxalq festivalda Rasim Balayevin aktyorluq sənəti və məharəti çox yüksək qiymət aldı. " Pravda" qəzetində Rasim Balayev beynəlxalq kino festivalının kəşfi kimi qeyd olundu". Əslində bu kəşf Həsən Seydbəyliyə aid idi. O, fikir tariximizdə XIV əsrdə kəşf olunmuş şair Nəsiminin üstündən 600 il keçdikdən sonra onun sənətdə surətini kəşf etmişdi...

Rasim Balayevin Nəsimi obrazı onun gənc bir aktyor kimi ilk işi, sənət dünyasına aldığı ilk vəsiqə idi. Bəlkə də bu obrazla Rasim öz yaradıcılıq xəzinəsi ilə, öz çoxcəhətli istedadının boyaları ilə tanış oldu. Rasim özünü bir istedad, bir yaradıcı, yaxşı imkanları olan bir aktyor kimi kəşf etdi və özü-öz gücünə inandı. Bu inam Nəsimi obrazını yaratmaq üçün gənc və böyük sənətdə heç bir təcrübəsi olmayan Rasim Balayevə çox lazım idi. Özünə inam onda Nəsimi kimi qüdrətli bir filosofun haqq yolunda apardığı ideoloji bir mübarizəni, bu mübarizənin mahiyyətini dərk edib, onu öz aktyor təbiətindəki ifaçılıq qabiliyyətinin vəhdətində əyaniləşdirməyinə imkan yaradırdı. Kamil insan haqqında çəkilmiş bu bədii filmdə bütün əsas ağırlıq Nəsimi obrazının ifasına bağlı idi...

Tarixi mənbələrlə yaxından tanış olan Rasim Balayev bir aktyor olaraq azad fikirli, iradəli, insanı haqqa qovuşmaq yolunda yaradıcı qüvvə kimi tanıyan və bu fikrini təbliğ edən bir fikir adamının inandığı həqiqətə başqalarını da inandırmaq üçün məşəqqətlərlə dolu bir həyat yaşamağı özünə borc bilən qeyri-adi bir düşüncə adamının, filosofun həyat və fəaliyyətini ekranda yaratmalı idi. Nəsiminin şeirlərini əruzun təsirli imkanlarından istifadə edərək söyləmək üçün aktyorla tanınmış ədəbiyyatşünas alim Əli Fəhmiz məşğul olurdu. "İstedad qüdrətli olduğu qədər də kövrəkdir. Ondan düzgün istifadə etmək, onu düzgün istiqamətləndirmək lazımdır. Buna görə də istedadı daim ciddi və ağıllı nəzarət altında saxlamaq lazımdır. Bunun məsuliyyətini istedad sahibləri ilə yanaşı, biz rejissorlar da həmişə işimizdə, yaradıcılığımızda hiss etməliyik" - deyən Həsən Seyidbəyli həqiqətən də Rasim Balayevin istedadına güvənirdi.

Ümumiyyətlə Nəsimi haqqında film çəkmək çoxdanki düşünülmüş bir qərar idi. 1971-ci ildə YUNESKO - nun qərarı ilə dahi Azərbaycan şairi Nəsiminin anadan olmasının 600 illik yubileyi keçirildi. Bu qərar Azərbaycan mədəniyyətində də böyük sayqı ilə qarşılandı. Kinoda da bu dahi, filosof şairin xatirəsini əbədiləşdirəcək və ona layiq olacaq bir film yaratmaq qərarına gəldilər. Bu fəlsəfi aspektdə çəkilən bədii filmin ssenarisini öz yazıçı dünyagörüşü ilə 60-70 ci illərdə seçilən, əsərlərindəki millilik, tarixilik prinsiplərinə görə oxucular tərəfindən maraqla izlənən İsa Hüseynov yazdı. O, əldə olan tarixi məlumatlara əsaslanaraq Nəsiminin həyatını, acı taleyini, fəlsəfi düşüncələrini bu ssenarisində təsvir etməyə çalışmışdı. İ.Hüseynov ssenaridə Nəsiminin şeirlərindən məqsədyönümlü şəkildə istifadə etməklə bu dahi şəxsiyyətin həyata baxışlarının xarakterini yaratmışdı.

Beləliklə 1974-cü ildə çəkilən " Nəsimi" filmi rejissor Həsən Seydbəylinin sənət bioqrafiyasının zirvəsi sayıldı. Filminin yaradıcı qurupuna görkəmli sənətkarlar


"Nəsimi"

daxil idilər. Rejissor Həsən Seyidbəyli, operator Rasim İsmayılov, bəstəkar Tofiq Quliyev, rəssamlar M. Hüseynov və M. Ağabəyovun birgə səyi nəticəsində filmin istənilən səviyyədə ərsəyə gəlməsi və milli kinomuzda özünəməxsus yerdə dayana bilən bir ekran əsəri kimi yaranması göz qabağındadır. "Nəsimi" bədii filmində rejissor əslində Şərq mədəniyyətində əsas vacib faktor olaraq fikrin, təfəkkürün faciəsini yaratmalı idi...

Tarixi mövzuda çəkilmiş "Nəsimi" filmi VII Ümumittifaq kino festivalında mükafata layiq görüldü. Baş rolun ifaçısı, gənc aktyor Rasim Balayev priz aldı. Rasim Balayev bu rolun ifasına görə həm də Respublika Lenin komsomolu mükafatı ilə də təltif olundu. Moskvada "Nəsimi" filmi heç bir irad almadan baxışdan keçdi və SSRİ Kino Komitəsi filmin iyulun 1-dən bütün müttəfiq respublikaların ekranlarında, müxtəlif dillərdə nümayiş etdirilməsinə icazə verdi.

"Nəsimi"-nin ayağı uğurlu oldu. Bir-birinin ardınca çəkilən "Qatır Məmməd", "Firəngiz", "Dədə Qorqud", "Vulkana doğru" (Azərbaycanda ilk serial), "Xoşbəxtlik qayğıları", "Arxadan vurulan zərbə", "Ad günü", "Tütək səsi", "Mən mahnı qoşuram", "Bəyin oğurlanması", "Burulğan", "Babək", "Sən həmişə mənimləsən", "Ovsunçu", "Yaramaz", "Yarasa" və başqa adını çəkmədiyim onlarla filmlər Azərbaycan kino tarixində özünəməxsus yeri olan sənət əsərləridir.

Rasim Balayevin adı çəkiləndə ilk növbədə Nəsimi, Beyrək, Babək, Cavid yada düşür. Tarixi obrazları yaratmaq özü böyük bir istedad və eyni zamanda incə bir ruh tələb edir. Məhz Rasim Balayev obrazı filmdə oynamaq xatirinə deyil, obrazı yaşamaq xatirinə yaradır. Məsələn, O, Babəki Rasim kimi deyil, elə Babək kimi yaratdı.


"Babək"

Obrazın xarakterini Rasim Balayev belə izah edərdi: "... Babək məni ilk növbədə azadlıq carçısı kimi cəlb etdi. Adicə bir kəndli balasının nəhəng bir sərkərdəyə çevrilməsinə səbəb də elə bu azadlıq eşqi, insanları azad görmək istəyidir. Azadlıq duyğuları gücsüzü güclü, kifiri gözəl, adi adamı qəhrəman edir. Babək öz əqidəsini qorumaq uğrunda təkcə qılıncla mübarizə apara bilməzdi, burada ağıl, hərbiçi fəndgirliyi də vacib idi. Mən Babəkin əlində alovlanan məşəli ümumən yadellilərə qarşı etiraz səsini ucaldan odlar yurdunun simvolu, onun mərd oğullarının yanar ürəyi kimi görürəm. Filmdə Babəkin şəxsiyyəti ilə yanaşı, milli mədəniyyətimizin və tariximizin qədimliyini də tamaşaçıya çatdırmaq vacib idi. Bu, məncə, xalqını səmimi hislərlə sevən hər bir yaradıcı ziyalının daxilindən gələn mənəvi tapşırıq, borc, ehtiyac olmalıdır..."

Yaratdığı rolları bir-bir analiz etsək "Babək" in bir başqa yeri olduğunu görərik. Əvvəla bu film sənət baxımından daha maraqlı və keyfiyyətlidir. Həm rejissor işi, həm operator işi, həm də aktyor oyunu digər filmlərə nisbətən çox yüksək səviyyədə idi. Babək obrazı aktyora bir təkan oldu.

"Babək" bədii filmi monumentalizm sənət üslubunda çəkilmiş bir ekran əsəri olamlı idi. Əks halda onun taleyi də "Koroğlu" və "Qatır Məmməd" filmlərinin aqibətinə bənzəyəcəkdi. Bu filmdə "milli keçmişimizin ən böyük sənədi olan -milli xarakter yaradılmalı idi. Bu xarakteri yaratmaq üçün Babəkin şəxsiyyəti, onun mübarizə apardığı dövrün siyasi-ictimai mahiyyəti, dini-fəlsəfi münasibətləri və digər etno-genetik xüsusiyyətləri dəqiqləşdirilib araşdırılmalı idi.

Rasim Balayev Babək rolunda tamam başqa xarakter yaradır. O, öz idealı uğrunda qətiyyətlə mübarizə aparan, cəsur, iradəli, yeri gələndə öz doğma övladına belə güzəştə getməyən bir sərkərdədir. Belə bir kadr var filmdə. Babək uca bir yerdən Bəz qalasına tərəf axışan saysız- hesabsız ərəb ordusunu müşahidə edir. Onun baxışlarında dərin bir kədərlə yanaşı, alovlu bir intiqam atəşinin yandığı da diqqəti cəlb edir. Ərəb xəlifəsinin gərəksiz tələblərini öz millətinə qarşı həqarət sayan Babək bu güclü qoşunun qarşısında qorxmur, titrəmir. Onun ərəb ordusunu kinlə müşayiət edən baxışlarında həm də məğrur bir qartalın öz ovunu kənardan izləyərkən diqqəti cəlb edən maraqlı bir alıcılıq hərisliyi vardır. Babək öz mübarizəsində, uğurlarında böyük bir xalqa güvənir. Bu onun məğrurluğunun, əzəmətinin, qazandığı




"Cavid ömrü"

qələbənin əsas təminatıdır. O, psixoloji incəlikləri duymağı bacarır, müsbət və mənfi rolları eyni sənətkarlıqla, eyni həvəs və məhəbbətlə oynamağı bacarır.

Bir-birindən mürəkkəb rollarda iştirak edən aktyorun müvəffəqiyyət qazanmasında onun sadəliyi, saflığı, təbiətinə xas olan alicənablığı da az rol oynamamışdır. Bütün aktyorların yaradıcılığında ən çox sevdiyi, qəlbinə, xarakterinə yaxın bildiyi, fəxr etdiyi bir neçə obrazı vardır. O, özü bu barədə hazırladığı hesabatda demişdir: "Nəsimi", "Qatır Məmməd", "Dədə Qorqud", "Ömrün ilk günü", "Arxadan vurulan zərbə", "Bir ailəlik bağ evi", "İstintaq", "Babək" filmlərində bir- birindən xarakterinə görə xeyli fərqli olan rollarda çəkilmişəm. Nə gizlədim, bu rollar arasında qəlbimə daha yaxın, daha doğma olanları da çoxdur. Çünki bu obrazlar daha gərgin və çətin bir yaradıcılıq prosesinin məhsuludur. Nəsimi, Beyrək, Babək... Bu surətlərin hər birinin böyük ekrana yol tapması üçün ömrümü sərf etdiyimə nəinki təəssüflənmir, əksinə sevinir, fəxr edirəm".

Ümumiyyətlə Rasim Balayevin yaratdığı hər hansı bir obrazı təhlil etməyə çalışsaq bunun nə qədər çətin və eyni zamanda nə qədər asan olduğunu görərik. Rasimin aktyorluq fəlsəfəsini təhlil etmək, onu ədəbiyyata köçürmək və eyni zamanda gələcək nəsillərə çatdırmaq ilk növbədə şərəfli və çətin işdir. Eyni zamanda asandır ona görə ki, Rasim xalqın içindən çıxan bir insan olduğu üçün onun oyun tərzi də asan, həm də hamı tərəfindən başa düşüləndir. Aktyor hər filmə çəkildikcə roldan-rola püxtələşir, inkişaf edir, təcrübəsini artırırdı. Özünün təvazökarlıqla dediyi kimi, "körpə təki ilk addımlarını atırdı". Hər filmdə sənətin bir sirrini anlayır, hər rejissordan bir yenilik öyrənirdi. Beləliklə zaman keçdikcə aktyorun şöhrəti respublikamızın, ölkəmizin hüdudlarını aşaraq xarici ölkələrə də yayıldı. ADR-in, Türkiyənin, İranın, Hindistanın kinostudiyalarından ona dəvətlər gəlirdi. "Əli şimşəkli atlı" (M.Qorki adına kinostudiya), "Pusqu" (Tacikfilm), "Dağ novellası" (Çeçen-İnquş televiziyası), "Ərköyün" (DEFA studiyası) filmləri aktyorun yaradıcılıq bioqrafiyasında xüsusi yer tutur.

Bütün bunlara baxmayaraq Rasim Balayev dəyişmədi. Özgələşmədi. Sübut etməyə çalışdı ki, Azərbaycan kinosunda bütün ağırlığı öz çiyinlərinə götürə bilən, hər cür obrazların çətinliyini daşıya bilən milli kadrlarımız yetişmiş və yetişməkdədir.....

**Bu da milyonların sevimlisi, respublikamızın xalq artisti Rasim Balayev.**

**Vüsalə XANLARQIZI,**
*ADMİU-nun dissertantı*

## Ədəbiyyat

1. Akif Məhərrəmov. Müasir Azərbaycanın kino aktyorları. Bakı. "İşıq" 1984.
2. Aydın Kazımzadə. Azərbaycan kinosu-110. "Cinema news", iyun 2008.
3. Aydın Dadaşov. Müstəqillik dövrünün dramaturgiyası. Bakı. "Nağıl Evi" 2005.
4. Aydın Dadaşov. Cavid ömrü. "TV plyus", fevral 2008.
5. Aygün A. Tarixi filmlər. "Kino". 09.06.2004.
6. С.Ходжаева. Во имя торжества правды. Ташкент-84. "Кино" №3. 1984.
7. Поема о Насими. Москва. "Советский Экран" 1973.
8. З.Мухина. Насими. Москва. "Новые фильмы". июль 1975.
9. З.Мухина. Насими. Москва. "Спутник кино зрителя". июль 1975.
10. З.Мухина. Сниматься эта работа. Москва. "Советский экран". №2. 1975.
11. А.Линков. Восстание духа. Москва. "Советский экран" 1974.